# Elçin İsgəndərzadə haqqında deyilənlər







Tale elə gətirdi ki, Sovet ədəbiyyatı bayrağı altında mənim nəsr əsərlərim dünya ədəbi arenasında lövbər sala bildi. Bu gün onların hamısı yaxşı-pis Türk nəsrinin məhsulu hesab olunur.

Elçin İsgəndərzadənin poeziyasının son illər dünyanın onlarla ölkəsində yerli dillərə çevrilərək çap olunması ondan xəbər verir ki, Türk poeziyası da artıq dünya poeziya okeanına yelkən açmaqdadır.

**Çingiz AYTMATOV**

* * *

Türk elminin bayrağını Dünyanın elm zirvəsinə yüksəltmək üçün çox cəhdlər etdik, bütün ömrümüzü xərclədik. Uğurlarımız da oldu, başarısızlıqlarımız da!

İnanıram ki, Türk Dünyasının Elçin İsgəndərzadə kimi nadir istedadları bizim bacarmadıqlarımızı, lakin arzuladıqlarımızı şərəflə həyata keçirəcəklər.

*akademik* **İhsan DOĞRAMACI**
*Bilkənt Universiteti qurucusu*

* * *

Azərbaycan ədəbiyyatının dünyada təbliğ edilməsində, türkdilli xalqların tanınmış yazıçılarının əsərlərinin və özlərinin Azərbaycan oxucularına tanıtdırılmasında Elçin İsgəndərzadənin misilsiz xidmətləri var.

**ANAR**
*Xalq Yazıçısı, Azərbaycan Yazıçılar Birliyinin sədri*

* * *

Professor Elçin İsgəndərzadənin Krımtatar xalqına və şəxsən mənə göstərdiyi böyük sevgi və saygını gördükdən sonra apardığımız mücadilənin nə qədər şərəfli və gərəkli olmasına bir daha ürəkdən inandım.

**Mustafa KRIMOĞLU**
*Krımtatar xalqının lideri, Krımtatar parlamentinin sədri*

* * *

Həm Xudu Məmmədov, həm də Şahmar Əkbərzadə mənə qardaşdan doğma oldular. Şəxsən mənim üçün çox fövqəladə və sevindirici bir haldır ki, ölkəmizin tanınmış alim və şairlərindən biri olan professor Elçin İsgəndərzadə Xudu Məmmədov adına elm sahəsində, Şahmar Əkbərzadə adına ədəbiyyat sahəsində Beynəlxalq mükafatlar təsis edib. Bu gün artıq həmin mükafat laureatlarının onlarla kitabları onun tərəfindən təmənnasız olaraq işıq üzü görüb. Bu dəyərli övladımızı bağrıma basır və ona öz dərin təşəkkürlərimi bildirirəm.

**Bəxtiyar VAHABZADƏ**
*Xalq şairi*

* * *

Elçin İsgəndərzadə bir-birinə bənzəməyən, lakin ulduz karvanına bənzəyən poemalar və şeirlər silsiləsi yazmışdır ki, onlar da ilhamlı könül dünyasından xəbər verir.

**Nəriman HƏSƏNZADƏ**
*Xalq şairi*

* * *

Professor Elçin İsgəndərzadə ilə dəfələrlə Suriya, İordaniya, Türkiyə və Misirdə beynəlxalq toplantılarda yol yoldaşı olmuşam. O, öz istedadı, təşkilatçılıq qabiliyyəti, səmimiyyəti ilə dünya ədəbi dairələrində xüsusi çəkisi olan nüfuz sahibidir. Onu tanıyanların və sevənlərin sayı o qədər çoxdur ki, qibtə etməmək olmur. Özəlliklə, E.İsgəndərzadə bu gün türk və ərəb ədəbiyyatları arasında çox böyük bir dostluq körpüsü missiyasını şərəflə yerinə yetirir.

**Dr. Ali Akle ORSAN**
*Ərəb Yazarlar Birliyi sədri*

* * *

Elçin İsgəndərzadənin poetik ilham mayasının Allah vergisi olmasını mən çoxdan, lap əvvəldən hiss etmişdim. Elə ona görə də bu çətin, şərəfli yaradıcılıq yolunda ona ilk uğuru, ilk xeyir-duanı da mən demişdim, mən yazmışdım.

Görünür yanılmamışam. Şeirdən-şeirə, kitabdan-kitaba Elçin sözün qədir-qiymətini bilə-bilə, artıra-artıra irəliləyib, istedadı cilalanıb, qələmi bulövlənib və mənim etimadımı bütünlüklə doğruldub.

**Məmməd ARAZ**
*Xalq şairi*

* * *

Yuxuma gəlmişdi. Kitab nəşri barədə çarpaz söhbətlər edirdik. Dedim: "Daha bəsdir, yorularsan, mənim sözüm qurtaran deyil". Dedi: "Fikir eləməyin. Əksinə, sevinin. Bizi oxşarlıq birləşdirir. Sizin sözünüz kimi, mənim də xeyirxahlığım tükənən deyil". Cənnətin qızıl açarını ələ gətirən iş davam edir. Bəli, yuxunu gerçəyə çevirəndir Elçin İsgəndərzadə.

Ona çox yaraşan bir sözüm də var: Elçin İsgəndərzadə böyümüş ürək yox, Böyük Ürək sahibidir.

**Qərib MEHDİ**

* * *

Şeirlərini zövqlə oxuduğum Elçin İsgəndərzadə mənə bizim milli ədəbiyyat şairlərimizdən Mehmet Emin Yurdakul ile Faruk Nafiz Çamlıbeli xatırlatdı.

Elçin İsgəndərzadə... ayağını yerə sağlam basan, Azərbaycan türkcəsini gözəl kullanan və şeirin anlatılmaz sehrindən, gücündən istifadə edərək Azərbaycan bayrağını həp yüksəklərdə dalğalandırmaq istəyən bir şairdir.

**Yavuz BÜLƏNT BAKİLƏR**

* * *

Güman edirəm, desəm ki, bu gün mədəni həyatımızda, xüsusən ədəbi aləmdə bir Elçin İsgəndərzadə fenomeni mövcuddur, çox da elə böyük mübaliğə kimi səslənməz. Qədim Qarabağ torpağının əsil kübar soyadlarına məxsus bir çox nəcib xüsusiyyətləri özündə birləşdirən bu gənc insan, texnika elmləri doktoru, professor, naşir, mühərrir, tanınmış ictimaiyyətçi və hər şeydən qabaq, gözəl bir şairdir. Öz həmyaşıdlarının uğuruna özününkü kimi sevinən, diqqətəlayiq bir həssaslıqla onların ən istedadlı və ən imkansızlarına bacardığı qədərində əl yetirən, ilk kitablarına həyat vəsiqəsi verən bir ziyalıdır.

**Çingiz ƏLİOĞLU**